RR - VAM BEYNƏLXALQ AUDİT KONSALTİNQ MMC
INTERNATIONAL AUDIT CONSULTING LLC

# Müstəqil auditorun hesabatı

## "Atəşgah Həyat" Sığorta ASC-nin

### rəhbərliyinə

Mən, Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 2011-ci il 07 oktyabr tarixli qeydiyyat nömrəsi SA/002 olan 047517 saylı lisenziyaya əsasən fəaliyyət göstərən "RR-VAM Beynəlxalq Audit Konsaltinq" MMC-nin direktoru - Auditor Abbasəli Qurbanov "RR-VAM Beynəlxalq Audit Konsaltinq" MMC ilə "Atəşgah Həyat" Sığorta ASC arasında bağlanılmış 12.01.2016-cı il tarixli 04/16 saylı müqaviləyə əsasən, həmin cəmiyyətin 31.12.2015-ci il tarixə sığortaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mühasibat balansından (Forma № 1 S) və bu tarixdə başa çatmış il üzrə sığotaçının (təkrarsığortaçının) və hüquqi şəxs sığorta brokerinin mənfəət və zərəri haqqında hesabatından ( Forma № 2 S), kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardım.

### Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti

Cəmiyyətin rəhbərliyi göstərilən maliyyə hesabatlarının Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

### Auditorun məsuliyyəti

Mənim vəzifəm apardığım audit əsasında həmin maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Mən auditi beynəlxalq audit standartlarına uyğun aparmışam. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

ÜNVAN :AZ 1074 Azərbzycan , Bakı ş. R.BAĞIROV 28/31
Telefon: 0502158238, 0502158237
E-mail: rrvam@hotmail.com

Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi bizim mülahizələrimiz əsasında aparılmışdır. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və cəmiyyətin rəhbərliyi tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirilmənin aparılması daxildir.

## Rəy

Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Mənim fikrimcə, maliyyə hesabatları 31.12.2015-ci il tarixinə maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını üzrə Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün və ədalətli təsəvvür yaradır.

Müstəqil auditorun hesabatı 31 mart 2016-cı il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi-təsərrüfat subyektində, ikincisi isə "RR-VAM Beynəlxalq Audit Konsaltinq" MMC –də saxlanılır.

**"RR-VAM Beynəlxalq Audit Konsaltinq"**
**MMC-nin direktoru-auditor** **A.Ş.Qurbanov**

31.03.2016-cı il